www.amu.edu.az

TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-19 (1845) 16 noyabr 2026-cı il



Zəfər Gününə həsr olunmuş silsilə tədbirlər keçirilib

Rektor, professor Gəray Gəraybəyli: Gələcək nəsillər Qələbənin hansı fədakarlıqlar hesabına əldə edildiyini heç vaxt unutmamalıdır

səh. 2

Süni intellektin tibb təhsilinə inteqrasiyası müzakirə olunub

səh. 2

Nümayəndə heyətimiz NASCO29-da iştirak edib

səh. 4

ATU-dan elmi dəstək, məktəblilərdən innovativ layihə

səh.7



İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası 100 yaşında

Rektor: Beynəlxalq konfrans keçmişə ehtiramın və gələcəyə yönəlmiş elmi məsuliyyətin təcəssümüdür

səh. 2

Belarus Dövlət Tibb Universitetinin yubiley tədbirlərində təmsil olunmuşuq

səh. 4

Piylənmə aktual sağlamlıq problemlərindən biridir

Qidalanma və tibbi ekologiya kafedrasında geniş seminar keçirilib

səh. 5



Şəhid ailəsi üzvü olan tələbələr diqqət mərkəzində

Prorektor Mahir Səfərov: Qəhrəmanlarımızın xatirəsi xalqımızın yaddaşında əbədi yaşayacaq

səh. 3

Zəfər Gününə həsr olunmuş silsilə tədbirlər keçirilib

Rektor, professor Gəray Gəraybəyli: Gələcək nəsillər Qələbənin hansı fədakarlıqlar hesabına əldə edildiyini heç vaxt unutmamalıdır

Azərbaycan Tibb Universitetində 8 Noyabr – Zəfər Günü münasibətilə silsilə tədbirlər təşkil olunub. Əvvəlcə universitetin rəhbərliyi ATU şəhərciyində şəhid məzunların xatirəsinə ucaldılmış memorial kompleksi ziyarət edib.

Rektor, professor Gəray Gəraybəyli və universitetin rəhbər heyəti abidə önünə gül dəstələri qoyaraq, Vətənimizin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş məzunların əziz xatirəsini dərin ehtiramla yad edib. Daha sonra universitetdə şəhid ailələrinin üzvləri ilə görüş keçirilib.

Görüşdə çıxış edən rektor, professor G.Gəraybəyli hər kəsi Zəfər Günü münasibətilə təbrik edərək 44 günlük Vətən müharibəsində qazanılan tarixi Qələbənin Azərbaycan xalqının yaddaşında əbədi yaşayacağını bildirib. Qeyd edib ki, gələcək nəsillər 44 günlük müharibə, torpaqlarımızın 27-28 il davam edən işğal dövrü və bu işğala son qoyan Zəfər haqqında tarix kitablarından oxuyacaqlar. Onlar bu Qələbənin hansı böyük fədakarlıqlar hesabına əldə edildiyini, şəhidlərimizin və qazilərimizin göstərdikləri qəhrəmanlığı heç vaxt unutmamalıdırlar.

Rektor vurğulayıb ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə uzun illər ərzində həyata keçirilən məqsədyönlü siyasət tarixi Qələbəmizin əldə olunmasında mühüm rol oynayıb. Azərbaycan xalqı torpaqlarımızın işğaldan azad ediləcəyinə inamını heç vaxt itirməyib. Ölkəmizin bu vəziyyətlə barışmasını istəyən müəyyən beynəlxalq siyasi dairələrin mövcudluğuna rəğmən, xalqımız doğma torpaqlarımıza qayıdacağına həmişə inanıb. Professor G.Gəraybəyli qeyd edib ki, 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq başlayan və 44 gün davam edən Vətən müharibəsi işğala son qoymaqla xalqımızın tarixi arzusunu gerçəkləşdirdi. Müharibə nəticəsində torpaqlarımızın böyük hissəsi işğaldan azad edildi, 2020-ci il noyabrın 8-də Şuşanın azad olunması isə Qələbənin taleyini müəyyənləşdirən mühüm hadisəyə çevrildi. 2023-cü ilin sentyabrında keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycanın bütün ərazilərində suverenliyi tam bərpa olundu. Rektor bu tarixin Azərbaycan xalqının qürur mənbəyi olduğunu vurğulayaraq, şəhidlərin ailə üzvlərinə dərin ehtiramını ifadə edib. Belə qəhrəman övladlar yetişdirən ailələrin qarşısında hər birimizin mənəvi borcu olduğunu diqqətə çatdıran ATU rəhbəri



qazilərə cansağlığı, ölkəmizə isə daim sülh və əmin-amanlıq arzulayıb. Görüşdə çıxış edən şəhid anası Mətanət Nəcəfova tarixi Zəfərin Azərbaycan xalqına yaşatdığı qürur və sevinc hisslərindən danışıb. O bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin məqsədyönlü siyasəti, Azərbaycan Ordusunun qəhrəmanlığı və şəhidlərimizin fədakarlığı nəticəsində Qarabağın Azərbaycana məxsus olduğu bir daha bütün dünyaya nümayiş etdirilib. Şuşanın azad edilməsini tarixi hadisə kimi dəyərləndirən şəhid anası, Azərbaycan Tibb Universitetinin rəhbərliyinə və kollektivinə diqqət və qayğıya görə təşəkkürünü çatdırıb. Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov şəhid ailələrinin daim universitet rəhbərliyi və kollektivinin diqqət mərkəzində olduğunu bildirib. Qeyd edib ki, şəhid ailələrinin hər bir üzvünə həssaslıqla yanaşmaq, onların problemləri ilə maraqlanmaq və imkan daxilində dəstək göstərmək hər kəsin mənəvi borcudur. Həmçinin növbəti addım kimi, şəhid ailəsi üzvlərinin gələn ilin may ayında Azərbaycan Tibb Universitetinin nəzdində fəaliyyət göstərən "Təbib" İstirahət Mərkəzinə göndəriləcəyi diqqətə çatdırılıb. Görüşdən sonra Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində fəaliyyət göstərən "Rəsm" klubunun təşkil etdiyi sərgiyə baxış keçirilib. Universitetimizin rektoru başda olmaqla, rəhbər şəxslər tələbələrin yaradıcılığı, o cümlədən rəsm əsərləri və toxuma əl işləri ilə yaxından tanış olub, öz fikirlərini bildiriblər. Fərəh Məmmədova, Nüşabə Novruzlu, Banuçiçək Musazadə, Aydan Rzazadə və Səidə Feyzullayevanın rəsmləri, Zeynəb Ağaməmmədova və Xədicə Qəmbərlinin əl işləri maraqla qarşılanıb.





İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası 100 yaşında

Rektor: Beynəlxalq konfrans keçmişə ehtiramın və gələcəyə yönəlmiş elmi məsuliyyətin təcəssümüdür





İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının yaranmasının 100 illiyinə həsr olunmuş "İctimai sağlamlığa aparan 100 il" adlı beynəlxalq elmi-praktik konfrans keçirilib.

Konfransın açılış mərasimində Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli çıxış edərək iştirakçıları salamlayıb, kafedranın yüzillik yubileyinin əhəmiyyətindən danışıb.

Rektor dünyanın müxtəlif ölkələrindən tədbirdə iştirak etmək üçün Azərbaycana gəlmiş görkəmli alimləri, professorları, tədqiqatçıları, səhiyyə mütəxəssisləri və gənc alimləri xüsusi ehtiramla salamlayaraq bildirib ki, bu yubiley yalnız bir kafedranın fəaliyyət tarixinin qeyd olunması deyil, həm də bir əsrlik elmi ənənəyə, pedaqoji fəaliyyətə və ictimai sağlamlığın inkişafına həsr edilmiş zəngin irsə ehtiramın ifadəsidir. Professor Gəray Gəraybəylinin sözlərinə görə, hər bir yubiley akademik kollektiv üçün keçilmiş yolun elmi və tarixi baxımdan qiymətləndirilməsi, həmin yolun formalaşmasında iştirak etmiş alimlərin xidmətlərinin xatırlanması və gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu mənada, beynəlxalq konfrans həm keçmişə ehtiramın, həm də gələcəyə yönəlmiş elmi məsuliyyətin təcəssümüdür.

Rektor vurğulayıb ki, İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının 100 illik fəaliyyəti Azərbaycanda tibbi təhsil, səhiyyə elmi və səhiyyə idarəçiliyinin inkişaf tarixi ilə sıx bağlıdır. Kafedranın formalaşması və inkişafı müxtəlif dövrlərdə səhiyyə qarşısında duran vəzifələrin, elmi yanaşmaların və təşkilati prioritetlərin dəyişməsi ilə müşayiət olunub. Gəray Gəraybəyli ölkəmizdə səhiyyə, tibb təhsili və tibb elminin inkişafına dövlət səviyyəsində göstərilən diqqət və qayğının xüsusi əhəmiyyətini qeyd edib. O bildirib ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə səhiyyənin inkişafı, tibbi kadr hazırlığının təkmilləşdirilməsi və tibb təhsilinin möhkəmləndirilməsi dövlət siyasətinin mühüm istiqamətləri sırasında olub. Həmin dövrdə formalaşmış ənənələr müstəqil Azərbaycanın müasir inkişaf mərhələsində də öz əhəmiyyətini qoruyub saxlayır. Rektor bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətində, eləcə də Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsləri və fəaliyyəti çərçivəsində əhalinin sağlamlığının qorunması, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi, səhiyyə infrastrukturunun inkişafı və insan kapitalının gücləndirilməsi mühüm yer tutur. Çıxışının sonunda kafedranın fəaliyyətinin müxtəlif mərhələlərində çalışmış, onun formalaşmasına və inkişafına töhfələr vermiş alimlər, müəllim və mütəxəssislərin əməyinə ehtiramını bildirib. O, kafedranın professor-müəllim heyətinə, əməkdaşlarına, məzunları və tələbələrinə zəngin elmi ənənələri davam etdirmək yolunda uğurlar arzulayıb.

Konfransda Patoloji fiziologiya kafedrasının müdiri, professor Sabir Əliyev və Epidemiologiya və tibbi statistika kafedrasının müdiri, professor İbadulla Ağayev də təbrik nitqi çıxış edərək bir əsrlik tarixin arxasında böyük zəhmət, fədakarlıq, elmi axtarışlar və nəsillərin yaddaşında yaşayan dəyərli xatirələrin dayandığını bildiriblər. Daha sonra Belarus Dövlət Tibb Universitetinin Səhiyyənin təşkili kafedrasının dosenti, tibb elmləri doktoru Anna Petrovna Romanova, Astana Tibb Universitetinin İctimai sağlamlıq və menecment kafedrasının müdiri, professor Assiya Kayirbayevna Turgambayeva, Arxangelsk Şimal Dövlət Tibb Universitetinin İctimai sağlamlıq, səhiyyə və sosial iş kafedrasının professoru Aleksey Genrixoviç Kalinin, Dokuz Eylül Universitetinin İctimai səhiyyə kafedrasının professoru Belgin Unal və Daşkənd Tibb işçilərinin peşəkar ixtisaslarının artırılması mərkəzinin İctimai sağlamlıq və səhiyyə idarəetməsi kafedrasının müdiri, professor Hamida Elemesovna Rustamova yubiley münasibətilə təbriklərini çatdırıb, beynəlxalq elmi əməkdaşlığın və təcrübə mübadiləsinin əhəmiyyətindən danışıblar. Konfransın Təşkilat Komitəsinin sədri, İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, tibb elmləri doktoru, dosent Yaqut Hacıyeva kafedranın birəsrlik inkişaf yolundan, əldə olunan nailiyyətlərdən və gələcək fəaliyyət istiqamətlərindən söz açıb. Qeyd edib ki, yubiley yalnız tarixi bir hadisənin qeyd olunması deyil, həm də bir əsr ərzində formalaşmış elmi ənənələrin, toplanmış təcrübə və dəyərlərin gələcək nəsillərə ötürülməsi baxımından mühüm məqamdır.

Arif MƏMMƏDLİ

Rektor, professor Gəray Gəraybəyli Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tibb təhsili üzrə eksperti, Ümumdünya Tibb Təhsili Federasiyasının akkreditasiya və qiymətləndirmə komandasının üzvü, regional səhiyyə və tibb təhsili sahəsində tanınmış mütəxəssis, professor Hossam Hamdinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Süni intellektin tibb təhsilinə inteqrasiyası müzakirə olunub



Görüşdə müasir tibb təhsilinin inkişaf tendensiyaları, innovativ kurikulumların hazırlanması, beynəlxalq rəqəmsal səhiyyə səriştələrinin formalaşdırılması, süni intellekt texnologiyalarının tədris prosesinə tətbiqi və gələcəyin səhiyyə mütəxəssislərinin hazırlanmasında bu texnologiyaların rolu ətrafında geniş fikir mübadiləsi aparılıb.

Rektor qonaqlara ATU-da həyata keçirilən təhsil islahatları, akkreditasiya və qiymətləndirmə sahəsində görülən işlər, universitetin qarşıya qoyduğu strateji hədəflər barədə ətraflı məlumat verib. O, beynəlxalq akademik əməkdaşlığın genişləndirilməsinin, təcrübə mübadiləsinin və müasir təhsil modellərinin tətbiqinin tibb mütəxəssislərinin hazırlıq keyfiyyətinin yüksəldilməsi baxımından əhəmiyyətini vurğulayıb.

Professor H.Hamdi isə ATU ilə potensial əməkdaşlıq istiqamətlərinə toxunaraq, ənənəvi tədris yanaşmalarının müasir texnologiyalar əsasında təkmilləşdirilməsinin vacibliyini qeyd edib. O, süni intellekt əsaslı tibb təhsilinin inkişaf mexanizmləri, rəqəmsal platformaların tədrisdə artan rolu, tələbə və rezidentlərin peşəkar səriştələrinin gücləndirilməsi, həmçinin müasir qiymətləndirmə metodlarının tətbiqi ilə bağlı fikirlərini bölüşüb.

Nümayəndə heyətinin üzvü, ABŞ-nin qlobal rəqəmsal təhsil və beynəlxalq nəşriyyat sahəsində fəaliyyət göstərən "McGraw Hill" şirkətinin Avropa, Yaxın Şərq və Afrika (EMEA) regionu üzrə akademik məsləhətçisi Nuri Karaca isə təmsil etdiyi şirkətin fəaliyyət istiqamətləri, rəqəmsal təhsil ekosisteminin imkanları, tədris resursları və müasir texnologiyalara əsaslanan həllər barədə məlumat verib.

Geniş müzakirələrlə davam edən görüşdə mümkün əməkdaşlıq istiqamətlərinin daha ətraflı araşdırılması, konkret fəaliyyət sahələrinin müəyyənləşdirilməsi və institusional əlaqələrin inkişaf etdirilməsi barədə razılıq əldə olunub.

Azərbaycan Tibb Universitetində Zəfər Günü münasibətilə şəhid ailələrinin üzvü olan tələbələrlə görüş keçirilib. Tədbiri giriş sözü ilə açan Tərbiyə işləri üzrə prorektor, dosent Mahir Səfərov şəhid övladları ilə görüşün onun üçün xüsusi mənəvi əhəmiyyət daşıdığını bildirib.



Şəhid ailəsi üzvü olan tələbələr diqqət mərkəzində

Prorektor Mahir Səfərov: Qəhrəmanlarımızın xatirəsi xalqımızın yaddaşında əbədi yaşayacaq

Prorektor tələbələrin hər görüşdə universitet əməkdaşlarına ruh yüksəkliyi və işləmək həvəsi verdiyini vurğulayıb. Şəhidlərin yoxluğunun qəlblərdə sağalmayan bir yara olduğunu bildirən M.Səfərov, onların qəhrəmanlığının heç vaxt unudulmayacağını, şəhid övladlarının isə tarixdə daim yaşayacaq qəhrəmanların yadigarı olduğunu qeyd edib. M.Səfərov dövlət səviyyəsində şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğıdan danışaraq, universitet rəhbərliyinin də bu həssas məsələyə daim xüsusi münasibət bəslədiyini diqqətə çatdırıb. O, rektor, professor Gəray Gəraybəylinin rəhbərliyi ilə universitetin şəhid övladlarının yanında olduğunu, onların problemlərinin həlli üçün imkanlar daxilində dəstək göstərildiyini bildirib.

Prorektor tələbələrə təhsillərində uğurlar arzulayaraq Zəfər Gününün xalqımızın yaddaşında əbədi yaşayacağını və gələcək nəsillərə örnək olacağını vurğulayıb.

Tədbirdə çıxış edən Tibbi və bioloji fizika kafedrasının professoru, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin universitet üzrə bölməsinin sədri Hüseyn Abıyev Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpasının tarixi əhəmiyyətindən danışıb. O bu Qələbənin Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Azərbaycan Ordusunun qüdrəti və xalqımızın birliyi sayəsində əldə olunduğunu bildirib.

Professor şəhidlərin qəhrəmanlığının Azərbaycan xalqının Vətənə və milli dəyərlərə bağlılığının bariz nümunəsi olduğunu qeyd edib. Xalqımızın zəngin tarixi irsindən söz açan H.Abıyev Babək, Cavanşir, Şah İsmayıl Xətai kimi tarixi şəxsiyyətlərin, Nizami Gəncəvi, Məhəmməd Füzuli və İmadəddin Nəsimi kimi böyük sənətkarların milli kimliyimizin formalaşmasındakı rolunu vurğulayıb. O, gəncləri bu qəhrəmanlıq və zəngin mədəniyyət ənənələrini davam etdirməyə, elm və təhsil sahəsində nailiyyətlər qazanaraq Azərbaycanı layiqincə təmsil etməyə çağırıb.

Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Qoşqar İsmayılov da çıxışında şəhid övladlarını yenidən bir arada görməkdən məmnunluğunu ifadə edib. Zəfər Gününün bütün xalqımız üçün qürur və sevinc bayramı olduğunu bildirən Q.İsmayılov tarixi Qələbənin əldə olunmasında şəhidlərin, qazilərin, Azərbaycan Ordusunun və Vətən uğrunda övlad yetişdirən valideynlərin böyük rolunu qeyd edib. O, gəncləri əldə olunmuş tarixi nailiyyətləri qorumağa, yaxşı təhsil almağa, bilik və bacarıqları ilə ölkəmizin inkişafına töhfə verməyə çağırıb.

Sonra İctimai səhiyyə fakültəsinin 2-ci kurs tələbəsi Sona Məmmədova və II Müalicə-profilaktika fakültəsinin 1-ci kurs tələbəsi Ayşən Məmmədova Vətənə və qəhrəmanlığa həsr olunmuş şeirlər səsləndiriblər. Görüşdə Azərbaycanın Milli Qəhrəmanı, şəhid general-mayor Polad Həşimovun qızı, ATU-nun tələbəsi Aybəniz Həşimova da çıxış edib. Həkim olmaq istəyinin atasının arzusu olduğunu bildirən A.Həşimova bu il universiteti bitirərək həmin arzunu həyata keçirəcəyini söyləyib.

O, şəhid ailələrinin övladlarına ilk gündən göstərilən diqqət və qayğıya görə universitet rəhbərliyinə, xüsusilə rektor, professor Gəray Gəraybəyliyə, eləcə də prorektor Mahir Səfərov, Hüseyn Abıyev və Qoşqar İsmayılova minnətdarlığını bildirib. Tədbir çərçivəsində Vətən müharibəsində şəhid olmuş ATU məzunlarının xatirəsinə həsr olunan videoçarx nümayiş etdirilib.

Sonda şəhid ailələrinin üzvü olan tələbələrə Tələbə Həmkarlar İttifaqı Komitəsi və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin universitet üzrə bölməsi tərəfindən pul hədiyyələri təqdim olunub.

Qabil ABDULLAYEV

Zəfər Günü kafedralarda qeyd olunub



İctimai fənlər kafedrasında Zəfər Gününə həsr olunmuş tələbə elmi konfransı keçirilib. Konfransı giriş sözü ilə açan kafedranın müdiri, professor Qoşqar Əliyev Zəfər bayramının tarixi və ictimai-siyasi əhəmiyyətindən danışıb. O bu əlamətdar günün Azərbaycan xalqının dövlətçilik tarixində xüsusi yer tutduğunu, milli qürur, birlik və həmrəyliyin təcəssümü olduğunu vurğulayıb. Baş müəllim Aidə Təhməzova bu kimi elmi tədbirlərin tələbələrin tədqiqat bacarıqlarının və elmi dünyagörüşünün inkişafında mühüm rol oynadığını bildirib.

Konfrans çərçivəsində tələbələr Süsən Tağıyeva, Əli Xəlilov, Fatimə Cəfərzadə, Duyğu Hacıyeva, Nərgiz Zeynalova, Nərmin Zeynalova və Müjdə Pənahova Zəfər tarixinin müxtəlif aspektlərini əhatə edən məruzələrlə çıxış ediblər.

Konfransın sonunda professor Q.Əliyev tələbələrin məruzələrini yüksək qiymətləndirərək, elmi işlərin məzmunlu və məsuliyyətlə hazırlandığını, çıxışlarda vətənpərvərlik ruhunun aydın hiss olunduğunu bildirib.

Sonda münsiflər heyətinin üzvü, Əczaçılıq fakültəsinin Tələbə Elmi Cəmiyyətinin rəhbəri Xuraman Mustafayeva konfrans iştirakçılarının sertifikatlarla təltif olunacağını bildirib və tələbələri 2027-ci ilin aprel ayında keçirilməsi nəzərdə tutulan TEC konfransında iştirak etməyə çağırıb.

Bioloji kimya kafedrasında 8 Noyabr – Zəfər Günü ilə bağlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan kafedranın müdiri, professor Gülnarə Əzizova milli birlik və həmrəyliyin təcəssümü olan bu əlamətdar günün Azərbaycan xalqına böyük qələbə sevinci yaşatdığını bildirib. O, Zəfər Gününün xalqımızın tarixində müstəsna əhəmiyyət daşıdığını vurğulayaraq, tarixi Qələbənin qazanılmasında Müzəffər Ali Baş Komandanın rəhbərliyini, şəhidlərin qəhrəmanlığı və qazilərin fədakarlığını vurğulayıb. Kafedranın həmkarlar qrup təşkilatının sədri, baş müəllim Ellada Hüseynova çıxışında 44 günlük Vətən müharibəsində Azərbaycan xalqının dəmir iradəsinin, birliyinin və gücünün bütün dünyaya nümayiş etdirildiyini diqqətə çatdırıb. O, işğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda üçrəngli bayrağımızın dalğalanmasının hər bir azərbaycanlı üçün böyük qürur mənbəyi olduğunu bildirib. Dosentlər Mahirə Əmirova və Akif Hacıyev də çıxışlarında xalqımızın Vətən müharibəsi zamanı göstərdiyi vətənpərvərlikdən, gənc nəslin Vətənə, dövlət rəmzlərinə və milli dəyərlərə bağlılığından söz açıblar. Tədbirin sonunda iştirakçılar universitet şəhərciyində şəhid məzunların xatirəsinə ucaldılmış abidə kompleksinin önünə gül dəstələri duzərək, qəhrəmanların əziz xatirəsini ehtiramla yad ediblər.



Bayramla əlaqədar müxtəlif tədbirlər təşkil edilib



Tələbə Həmkarlar İttifaqı Komitəsinin dəstəyi, İntellektual Oyunlar Klubunun təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr edilmiş intellektual yarış keçirilib. 24 sualdan ibarət "Nə? Harada? Nə zaman?" formatlı yarışda tələbələrdən ibarət komandalar birincilik uğrunda mübarizə aparıblar. Yekun nəticəyə əsasən "Agarta" komandası I yer, "Maestros" II, "Scapula" isə III yerin qalibi olub. Yarışın sonunda qalibləri təbrik edən THİK sədri Qoşqar İsmayılov çıxışında yarışın həsr olunduğu Zəfər Gününə diqqət çəkərək, şanlı zəfər tariximizdən, qələbəni qanı ilə yazan qəhrəmanlarımızdan söz açıb.

* * *

Zəfər Günü ərəfəsində THİK-in təşəbbüsü və dəstəyi ilə 44 tələbəmiz Vətən müharibəsinə həsr olunmuş "44" bədii filmini izləyib. 44 gün davam edən müharibənin 44 tələbənin iştirakı ilə anılması simvolik məna daşıyıb. Xalqımızın qəhrəmanlığına, Vətən uğrunda mübarizə aparan igidlərimizin şücaətinə həsr olunan "44" bədii filmi tələbələr üçün yalnız bədii ekran əsəri deyil, həm də tariximizin şanlı səhifələrini bir daha xatırlamaq, şəhidlərimizin əziz xatirəsini ehtiramla yad etmək və Zəfərin hansı fədakarlıqlar hesabına qazanıldığını daha dərindən dərk etmək imkanı olub.

* * *

Hərbi tibb fakültəsinin özfəaliyyət dərnəyi - "Zəfər" qrupunun təşkilatçılığı ilə 8 Noyabr – Zəfər və 9 Noyabr – Dövlət Bayrağı günlərinə həsr olunmuş təntənəli tədbir baş tutub. Tədbirin rəsmi hissəsində tibb xidməti polkovniki Məharət Rzayev çıxış edərək



şəxsi heyəti əlamətdar bayramlar münasibəti ilə təbrik edib. O, Zəfər Günü ilə əlaqədar olaraq keçirilən idman yarışlarında fəallıq göstərən, yüksək nailiyyətlər əldə edən bir qrup kursant və tələbəni fəxri fərman və hədiyyələrlə mükafatlandırıb. Daha sonra fakültənin müharibə veteranları şəxsi heyət qarşısında çıxış edərək öz döyüş yolları, şücaətlərindən danışıblər. Veteranlar qazanılan möhtəşəm qələbənin şəhidlərimizin, qazilərimizin və hərbçilərimizin qanı və canı bahasına əldə olunduğunu xüsusi vurğulayıblar. Tədbirin bədii hissəsində "Zəfər" qrupu tərəfindən milli dəyərlərə söykənən, Vətənə, ana yurda və milli qürura bağlılığı tərənnüm edən mahnılar səsləndirilib. Təqdim olunan musiqi nömrələri iştirakçılarda dərin coşqu və yüksək vətənpərvərlik əhval-ruhiyyəsi yaradıb, alqışlarla qarşılanıb.

* * *

Bayram münasibətilə fakültənin bir qrup şəxsi heyəti, o cümlədən zabit, müəllim və kursantlar Zəfər Muzeyini ziyarət edərək, eksponatlarla, Vətən müharibəsi dövrünə aid tarixi fotoşəkillərlə və stendlərlə yaxından tanış olublar.

Şəxsi heyət, həmçinin Vətənimizin azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini ehtiramla yad edib, muzeyin həyətində yerləşən xatirə kompleksi və Zəfər simvolu önündə xatirə şəkilləri çəkdirib.

* * *



8 Noyabr – Zəfər Günü və 9 Noyabr – Dövlət Bayrağı Günü münasibətilə təşkil olunan silsilə tədbirlər çərçivəsində növbəti təşəbbüs Elektron Kitabxananın əməkdaşları tərəfindən həyata keçirilib. Belə ki, kitabxananın bir qrup əməkdaşı əlamətdar tarixi günlər münasibətilə Zəfər Parkını və Hərbi Qənimətlər Parkını ziyarət edib. Ziyarət zamanı Vətənimizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi dərin ehtiramla yad edilib, onların böyük qəhrəmanlığı, və fədakarlığı bir daha ehtiramla anılıb.

* * *



Tədbirlər planına uyğun olaraq, Hərbi tibb fakültəsinin bir qrup şəxsi heyəti fakültənin V kurs kursantı Ruslan Orucovun atası – Vətən müharibəsi şəhidi polkovnik-leytenant Nail Orucovun Astara rayonunda anım mərasimində iştirak edib. Ziyarət zamanı məzarüstü abidənin önünə tər güllər düzülüb, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizin əziz xatirəsi dərin ehtiram və minnətdarlıqla yad edilib. Anım tədbiri çərçivəsində nümayəndə heyəti şəhid Nail Orucovun ev muzeyini də ziyarət edib. Muzeydə şəhidin keçdiyi şərəfli döyüş və həyat yolu, həmçinin hərbi xidmətdəki nümunəvi fəaliyyəti haqqında geniş məlumat verilib. Görüş zamanı şəhidin ailə üzvləri ilə səmimi söhbətlər aparılıb.

Vətən bağı Qələbə qoxur...

Vətən bağı al-əlvandır,
Var içində xarıbülbül...



Vətən bağı qələbə qoxur. Şuşanın dağları Vətən oğullarını salamlayır. Vətən həsrəti ilə közə dönmüş gözlər indi sevincdən ağlayır. Qarabağ üçün, Zəfərimiz üçün artıq kədərdən deyil, sevincdən ağlayır. Bugünkü bütöv Azərbaycan üçün 8 Noyabr sadəcə təqvim günlərindən biri deyil. Bu tarix bir xalqın canla, qanla özünü yenidən yazdığı, illərdir çözülməyən düyünlərin söküldüyü, sinəmizə çəkilən həsrət dağlarının dağıldığı, qürurumuzun Zəfər sədaları altında yüksəklərə ucaldığı gündür. Bu günün sevincini yaşamağımıza görə igid oğullarımıza borcluyuq. Əgər bu gün çiyinlərimiz daha geniş, başımız daha uca, addımlarımız daha inamlıdırsa, bu möhtəşəm əsərin müəllifləri onlardır. Onlar tarix yazdılar, bizə isə həmin tarixə layiq yaşamaq məsuliyyətini əmanət etdilər. Şəhidlərimizin müqəddəs xatirəsi qarşısında baş əyir, qazilərimizə Uca Allahdan şəfa diləyirik. Çünki bu torpağın hər parçasında bir igidin ömrü, zirvələrə yüksələn hər bayrağın kölgəsində bir ananın duası, qələbə sevincimizin dərinliyində isə unudulmayan bir həsrət dayanır. Çətinliklərdən süzülüb gələn, bütövlüyünü bərpa etmiş bir xalqın vətəndaşları olaraq bizə əmanət edilən bu mirasa sadiq qalmalıyıq. Çünki Zəfər yalnız keçmişdə qazanılmış bir qələbə deyil, hər gün qorunmalı və gələcəyə daşınmalı olan müqəddəs dəyərdir.

Bu gün biz sadəcə tələbə deyilik, adını tarixə qızıl hərflərlə yazmış bir xalqın, qalib ordunun sağlamlığını və hərbi etibarını qoruyacaq, ölkəmizi gələcəyə aparacaq gənc hərbi kadrlarıq. Daşıdığımız məsuliyyət yalnız seçdiyimiz peşənin sərhədləri ilə məhdudlaşmır. Bizim üçün Vətənə və insan həyatına sadiqlik peşəmizin simvoludur. Vətənə xidmətin yolu müxtəlif ola bilər, məqsəd isə birdir: qorumaq, yaşatmaq və əmanətə sahib çıxmaq.

Bizim üzərimizə düşən vəzifə Vətənin hər qarışına sahib çıxmaq, bu torpağın adını elmimizlə, əməyimizlə, uğurlarımızla ucaltmaqdır.

Vətən bağı yenə al-əlvandır. Şuşanın dağları azadlığın nəğməsini dinləyir, xarıbülbül sevgiylə açır.

Zəfərimiz əbədi, bayrağımız daim yüksəklərdə olsun!

Qəndab Bağırova,
Hərbi tibb fakültəsinin tələbəsi

Tələbə Elmi Cəmiyyətinin illik hesabat konfransı baş tutub

Azərbaycan Tibb Universiteti Tələbə Elmi Cəmiyyətinin illik hesabat-seçki konfransı baş tutub. Tədbiri açan TEC-in elmi rəhbəri, dosent Nərgiz Məmmədova konfransın gündəliyini iştirakçıların diqqətinə çatdırıb.



Daha sonra konfransın işini təşkil etmək məqsədilə sədr, katib və hesablama komissiyasının üzvlüyünə namizədlər irəli sürülüb. Təkliflər səsvermə yolu ilə qəbul olunub. Elmi Tədqiqatların İdarə Olunması Departamentinin rəhbəri, professor Eldar Qarayev çıxışında TEC-in fəaliyyətinin ildən-ilə genişləndiyini, tələbələrin elmi araşdırmalara marağının artdığını bildirib. Professor qeyd edib ki, universitet rəhbərliyinin, xüsusilə rektorun TEC-in fəaliyyətinə göstərdiyi diqqət və dəstək tələbələrin elmi nailiyyətlərinin yüksəlməsinə müsbət təsir göstərir. Bunun nəticəsi olaraq tələbələrin yüksək kvartilli elmi jurnallarda dərc olunan məqalələrinin sayı artır. O, tələbələrin beynəlxalq ixtisaslaşmış konfranslarda məruzəçi və iştirakçı qismində çıxış etmələrinin də elmi fəaliyyətə marağın göstəricisi olduğunu vurğulayıb.

Daha sonra TEC-in sədri, II Müalicə-profilaktika fakültəsinin VI kurs tələbəsi Nigar Babayeva ötən bir il ərzindəki fəaliyyətə dair hesabatla çıxış edib. Hesabatda fakültələr üzrə tələbə elmi konfranslarının nəticələrinə geniş yer ayrılıb. N.Babayeva 2025 və 2026-cı illərdə təqdim olunan elmi işlərin sayını müqayisə edərək ayrı-ayrı fakültələrdə və kafedralarda elmi fəallığın göstəriciləri barədə məlumat verib, aparıcı kafedraları diqqətə çatdırıb. Konfrans çərçivəsində TEC Şurasına seçkilər də keçirilib.

Universitetimizin nümayəndələri Naxçıvanda keçirilən "Doktorantların və gənc tədqiqatçıların Respublika Elmi Konfransı – NASCO29"-da iştirak edib.

Nümayəndə heyətimiz NASCO29-da iştirak edib

Elm və Təhsil Nazirliyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə keçirilən konfrans gənc alim və tədqiqatçıların elmi nailiyyətlərinin geniş auditoriyaya təqdim olunması, aktual elmi problemlərin müzakirəsi və yeni əməkdaşlıq imkanlarının yaradılması baxımından mühüm platforma rolunu oynayıb. "Şəhərsalma və Memarlıq İli"nə həsr olunan NASCO29-da ATU-nu Elmi işlər üzrə prorektor, professor Məlahət Sultanın rəhbərliyi ilə doktorantlardan ibarət nümayəndə heyəti təmsil edib.Konfrans çərçivəsində 15 doktorant səhiyyənin



aktual çağırışlarını, innovativ yanaşma və müasir tibbi tədqiqatların prioritet istiqamətlərini əhatə edən araşdırmalarının nəticələrini təqdim edib.

Praqada üçtərəfli görüş keçirilib



Azərbaycan Tibb Universiteti (ATU), Azərbaycan İdman Akademiyası (ASA), və Çexiyanın Karlov Universiteti arasında üçtərəfli görüş keçirilib.

Tərəflər idman elmləri və reabilitasiya sahəsində akademik əlaqələrin genişləndirilməsi, ali təhsil müəssisələri arasında əməkdaşlığın inkişaf perspektivləri, təcrübə mübadiləsi, bakalavriat təhsil səviyyəsi üzrə "Fizioterapiya" ixtisasının məzmunu və tədrisinin təşkili, eləcə də gələcəkdə birgə diplom proqramının yaradılması məsələlərini müzakirə ediblər.

Praqada yerləşən universitetdə keçirilən görüşdə ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, professor Orxan İsayev, ASA-nın Tədris işləri üzrə prorektoru Ülkər Babayeva və Karlov Universitetinin nümayəndələri iştirak ediblər.

Görüşdə tədris prosesində beynəlxalq təcrübənin tətbiqi, tələbələrin nəzəri biliklərinin praktik bacarıqlarla möhkəmləndirilməsi imkanları diqqət mərkəzində olub.

Karlov Universitetinin Beynəlxalq əlaqələr ofisinin direktoru Silvi Boumova ilə keçirilən ayrıca görüşdə isə beynəlxalq əməkdaşlığın genişləndirilməsi və birgə fəaliyyət imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Belarus Dövlət Tibb Universitetinin yubiley tədbirlərində təmsil olunmuşuq

Universitetimizin nümayəndə heyəti Belarus Dövlət Tibb Universitetinin (BDTU) 105 illik yubileyinə həsr olunmuş təntənəli tədbirlərdə iştirak edib. Minsk şəhərində keçirilən yubiley mərasimlərində prorektorlar Mahir Səfərov və Nizami Adilov universiteti təmsil ediblər.

Yubiley proqramı çərçivəsində "Tibbin aktual məsələləri" Respublika konfransı, XX yubiley beynəlxalq ixtisaslaşdırılmış "Belarus Stomatologiyası" (BELARUSDENT) sərgisi və XII Belarus Beynəlxalq Stomatoloji Konqresi təşkil olunub. Beynəlxalq Stomatoloji Forum çərçivəsində keçirilən tədbirlər elmi nailiyyətlərin müzakirəsi, müasir texnologiyaların təqdimatı və mütəxəssislər arasında təcrübə mübadiləsinə xidmət edir.

Tərbiyə işləri üzrə prorektor, tibb üzrə fəlsəfə doktoru, Ortopedik stomatologiya kafedrasının dosenti Mahir Səfərov XII Belarus Beynəlxalq Stomatoloji Konqresinin "Stomatologiyanın aktual məsələləri" elmi sessiyasında "Dental implantasiya fəsadlarının yayılması, müalicəsi və profilaktikası problemi"nə dair məruzə ilə çıxış edib.

Aktuallığı ilə diqqət çəkən məruzədə qeyd olunub ki, müasir dental implantların yüksək sağqalma göstəricilərinə baxmayaraq, pasiyentlərin 35-55 faizində periimplantat mukozit, 22-27 faizində isə periimplantit müşahidə olunur. Bu ağırlaşmaların sürətli inkişaf xüsusiyyəti erkən diaqnostika və risk amillərinin vaxtında aradan qaldırılmasını zəruri edir. 180 pasiyentin iştirakı ilə aparılan təhlildən danışan ATU rəsmisi qeyd edib ki, araşdırma ağız boşluğunun qeyri-düzgün gigiyenası ilə iltihabi ağırlaşmalar arasında birbaşa əlaqəni üzə çıxarıb. Ağırlaşma müşahidə olunan pasiyentlərin yarıdan çoxunun aşındırıcı tərkibli, o cümlədən ağardıcı diş pastalarından istifadə etdiyi müəyyənləşdirilib. Həmçinin pasiyentlərin 70 faizinin implantlara qulluq qaydaları barədə həkimdən yetərli məlumat almadığı aşkarlanıb. Qanaxma zamanı özbaşına müalicəyə əl atılması isə sümük toxuması itkisinin ağırlaşmasına səbəb olan amillərdən biri kimi diqqətə çatdırılıb. Qeyd edək ki, Beynəlxalq Stomatoloji Forum hər il dünyanın 11 ölkəsini - Azərbaycan, Belarus, Hindistan, İran, Çin, Qırğızıstan, Türkiyə, Tanzaniya, Özbəkistan, Rusiya və Cənubi Koreyanı təmsil edən iştirakçıları bir araya gətirir.



Kollokviumla bağlı qrup nümayəndələri ilə görüş keçirilib

İctimai Səhiyyə fakültəsinin təşkilatçılığı ilə müxtəlif ixtisaslar üzrə qrup nümayəndələri ilə görüş keçirilib. Görüşdə qarşıdan gələn kollokvium, imtahanların təşkili, aralıq qiymətləndirmə meyarları və apellyasiya müraciətləri ilə bağlı məsələlər müzakirə olunub.

Tədbirdə Tədris departamentinin rəhbəri, dosent Kamandar Yaqubov qarşıdakı kollokviumların cədvəli və keçirilmə qaydaları barədə ətraflı məlumat verib. Departament rəhbəri imtahan prosesində müəyyən edilmiş qaydalara, həmçinin dərsə davamiyyət və tədris prosesinə məsuliyyətlə yanaşmanın vacibliyini bir daha diqqətə çatdırıb.



Bununla yanaşı, imtahan nəticələri ilə bağlı apellyasiya müraciətlərinin verilməsi və araşdırılması qaydalarına toxunulub, bu prosesdə tələbələrin diqqətli və məsuliyyətli olmalarının əhəmiyyəti vurğulanıb.

Görüş zamanı qrup nümayəndələrinin müraciət və təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb. Tələbələrlə qarşılıqlı fikir mübadiləsi aparılaraq tədris və imtahan prosesi ilə bağlı məsələlərə aydınlıq gətirilib.

Görüş Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) 4-cü istiqaməti – Keyfiyyətli təhsil ilə uzlaşır. Bu məqsəd təhsilin keyfiyyətinin artırılmasını və bərabər təhsil imkanlarının təmin edilməsini, eləcə də tələbələrin bilik və bacarıqlarının inkişaf etdirilməsini nəzərdə tutur. Görüşdə tədris və qiymətləndirmə prosesinin təkmilləşdirilməsi, tələbələrin müraciət və təkliflərinin dinlənilməsi bu istiqamətdə mühüm əhəmiyyət daşıyır.

Orqan donorluğu və transplantasiyanın aktual məsələləri müzakirə olunub



Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi və Azərbaycan Ürək-damar Cərrahları Cəmiyyətinin birgə təşkilatçılığı ilə ATU-da elmi-praktik konfrans keçirilib.

"İnsanların yaşamaq şansı sənin əlindədir!" devizi altında təşkil olunan tədbirdə orqan donorluğu və transplantasiya sahəsinin inkişaf perspektivləri, mövcud imkanlar və bu istiqamətdə maarifləndirmənin əhəmiyyəti müzakirə olunub.

Konfransı ATU-nun Elmi işlər üzrə prorektoru, professor Məlahət Sultan açaraq bildirib ki, konfrans çərçivəsində dinlənilәcək məruzələr və aparılacaq müzakirələr iştirakçılar üçün faydalı olacaq. Prorektor tədbirin "Transplantat 360" həftəsi çərçivəsində keçirildiyini və bu təşəbbüsün ilk mərhələsinin Azərbaycan Tibb Universitetindən başladığını diqqətə çatdırıb.

O, tədbirin təşkilinə görə Koordinasiya Mərkəzinin rəhbərliyinə, eləcə də Cəmiyyətin fəxri sədri, professor Kamran Musayevə və digər təşkilatçılara təşəkkürünü bildirib, iştirakçılara uğurlar arzulayıb. Daha sonra Azərbaycan Respublikası Səhiyyə Nazirliyi yanında Orqan Donorluğu və Transplantasiya üzrə Koordinasiya Mərkəzinin sədri Yeganə Abbasova çıxış edərək ölkəmizdə orqan donorluğu və transplantasiya sisteminin formalaşması və inkişaf mərhələləri haqqında məlumat verib. O, orqan transplantasiyasının inkişafında süni tənəffüs texnologiyalarının tətbiqinin, beyin ölümü diaqnozunun düzgün müəyyənləşdirilməsinin və donorluq sisteminin təşkilinin mühüm rol oynadığını qeyd edib. Bildirib ki, Qafqazda ilk ürək transplantasiyası əməliyyatının Azərbaycanda həyata keçirilməsi bu sahədə uzun illər ərzində aparılan sistemli işlərin nəticəsidir.

Mərkəzin sədri bildirib ki, 2022-ci ildə Vahid İnformasiya Bazası haqqında Əsasnamənin təsdiqlənməsindən sonra ölkədə orqan transplantasiyası sahəsində vahid rəqəmsal sistemin yaradılmasına başlanılıb. Sistemə reanimasiya şöbələrində süni tənəffüs aparatlarına qoşulan pasiyentlərin müalicə olunduğu xəstəxanalar, transplantasiya əməliyyatları həyata keçirən tibb müəssisələri və orqan transplantasiyasına ehtiyacı olan şəxslərin siyahıları daxil edilib.

Qeyd olunub ki, vahid informasiya sistemi vasitəsilə böyrək, qaraciyər, ürək, buynuz qişa və sümük iliyi transplantasiyasını gözləyən pasiyentlərin növbəliliyi mərkəzləşdirilmiş və şəffaf qaydada təşkil olunur.

Azərbaycan Ürək-damar Cərrahları Cəmiyyətinin fəxri sədri, professor Kamran Musayev çıxışında ürək transplantasiyası sahəsində ölkəmizdə əldə olunan nailiyyətlərə toxunub. Bildirib ki, ötən ilin oktyabr ayının sonunda ölkəmizdə və Qafqaz regionunda ilk dəfə ürək transplantasiyası əməliyyatının həyata keçirilməsi səhiyyə tariximizdə mühüm hadisə olub. Həmin vaxtdan etibarən Mərkəzi Klinikada dörd ürək transplantasiyası əməliyyatı icra edilib.

Professor vurğulayıb ki, transplantasiyanın uğurla həyata keçirilməsi üçün cərrahi müdaxilə ilə yanaşı, beyin ölümü diaqnozunun vaxtında və düzgün qoyulması, eləcə də orqan donorluğu sisteminin inkişafı xüsusi əhəmiyyət daşıyır. Çıxışında orqan transplantasiyasına ehtiyacı olan şəxslərin sayına da toxunan K.Musayev Koordinasiya Mərkəzində müxtəlif orqanların transplantasiyasını gözləyən 1500-dən çox xəstənin qeydiyyatda olduğunu bildirib.

Konfransda ilahiyyat üzrə fəlsəfə doktoru Əhməd Niyazov da çıxış edərək orqan donorluğunun mənəvi və dini aspektlərindən danışıb.

O qeyd edib ki, orqan bağışlamaq yalnız tibbi deyil, həm də mənəvi məsuliyyət məsələsidir. İnsan həyatını xilas etməyi mənəviyyatın ali təzahürlərindən biri kimi dəyərləndirən Ə.Niyazov İslamın mərkəzində insan həyatının və onun qorunmasının dayandığını bildirib.

I kurs rezidentləri ilə görüş keçirilib



Azərbaycan Tibb Universitetində I kurs rezidentləri ilə maarifləndirici görüş keçirilib. Rezidentura və magistratura departamentinin rəhbəri, dosent İlhamə Mustafayeva rezidentura təhsilinin təşkili, yenilənmiş təhsil proqramları, rotasiyalar və elmi-tədqiqat fəaliyyətinin əhəmiyyəti barədə məlumat verib. O, rezidentlərin təhsil prosesinin səmərəli təşkili üçün kuratorlar, kafedra müdirləri və klinik təlim üzrə məsul şəxslər arasında koordinasiyanın vacibliyini vurğulayıb. Həmçinin rotasiyaların elektron qaydada izlənilməsi modulunun tətbiqi, əlavə ixtisas və xarici rotasiya imkanları barədə danışıb. Çıxışda rezidentlərin təhsil proqramları və vəzifə təlimatları ilə tanış olmalarının, hüquq və öhdəliklərini bilmələrinin, əmək intizamına riayət etmələrinin vacibliyi diqqətə çatdırılıb. Həmçinin elmi-tədqiqat fəaliyyətinin rezidenturanın ilk kursundan formalaşdırılmasının vacibliyi, müasir elmi ədəbiyyatın, tədqiqatların və klinik protokolların mütəmadi izlənilməsinin peşəkar inkişafdakı mühüm rolu diqqətə çatdırılıb.

Görüşdə rezidentlərin təhsil və klinik fəaliyyət zamanı qarşılaşdıqları çətinliklərin müəyyənləşdirilməsi məqsədilə hazırlanmış sorğunun əhəmiyyətindən də danışılıb. Bildirilib ki, sorğu rezidentlərin təklif və ehtiyaclarının öyrənilməsinə, mövcud çatışmazlıqların aradan qaldırılmasına və təhsil prosesinin keyfiyyətinin artırılmasına xidmət edir. Sonda rezidentlərin sualları cavablandırılıb, təhsil prosesi və rotasiyalarla bağlı müraciət və təklifləri dinlənilib.

Süni intellektin xarici dil tədrisinə inteqrasiyası

Stomatologiya fakültəsinin Xarici dillər kafedrasının təşkilatçılığı ilə "Müasir tibb təhsilində xarici dil tədrisi və süni intellektin inteqrasiyası" mövzusunda maarifləndirici tədbir keçirilib.



Tədbiri giriş sözü ilə açan kafedra müdiri Zemfira Məmmədova süni intellektin xarici dil tədrisində tətbiqinin əhəmiyyətini vurğulayıb. O, tədbirin məqsədinin müəllimləri müasir rəqəmsal alətlər və yeni tədris metodları ilə tanış etmək, onların bu sahədə bilik və bacarıqlarını artırmaq olduğunu bildirib.

Sonra "ChatGPT" və "Diffit" süni intellekt platformaları təqdim olunub. Kafedranın müəllimi Elvina Qulamova "ChatGPT" platformasının müxtəlif iş rejimləri, onların xüsusiyyətləri və tədris prosesində istifadə imkanları haqqında məlumat verib. Süni intellekt vasitəsilə dərs planlarının, tibbi ingilis dili üzrə tapşırıqların, testlərin və digər tədris materiallarının hazırlanması praktik nümunələrlə nümayiş etdirilib. Günel Rüstəmova isə "Diffit" platformasının funksiyaları və tədrisdə tətbiqi imkanlarından bəhs edib. Platformanın müxtəlif dil səviyyələrinə uyğun materialların hazırlanması, mətnlərin sadələşdirilməsi və fərdiləşdirilmiş təlimin təşkili baxımından müəllimlərə yaratdığı imkanlar diqqətə çatdırılıb. Bildirilib ki, süni intellekt texnologiyalarının xarici dil tədrisinə inteqrasiyası müəllimlərin işini asanlaşdırmaqla yanaşı, tədrisin keyfiyyətinin yüksəldilməsinə, tələbələrin fərdi ehtiyaclarına uyğun materialların hazırlanmasına və müasir təhsil mühitinin inkişafına töhfə verə bilər.

Aytac ƏSƏDOVA



Piylənmə aktual sağlamlıq problemlərindən biridir

Qidalanma və tibbi ekologiya kafedrasında "Piylənmə müasir dövrün tibbi-sosial problemi kimi" mövzusunda seminar keçirilib.

Seminarı giriş sözü ilə açan kafedra müdiri, dosent Fəridə Əli piylənmənin müasir dövrün aktual sağlamlıq problemlərindən biri olduğunu vurğulayıb. O bildirib ki, piylənmə yalnız estetik məsələ deyil, bir sıra xroniki xəstəliklərin yaranması və inkişafı ilə əlaqəli ciddi tibbi-sosial problemdir. Qeyri-sağlam qidalanma vərdişləri və stress bu problemin aktuallığını daha da artırır. Piylənmə ürək-damar xəstəlikləri, şəkərli diabet və digər sağlamlıq problemlərinin yaranmasında mühüm risk amillərindən biridir. Kafedra müdiri seminarın əsas məqsədinin piylənmənin fəsadları barədə məlumatlılığı artırmaq, problemin profilaktikası yollarını müzakirə etmək, sağlam qidalanma və həyat tərzinin təşviqinə dair müasir yanaşmaları müəyyənləşdirmək olduğunu diqqətə çatdırıb.

Tədris işləri üzrə prorektor, professor Anar Ağayev mövzunun həm Azərbaycan, həm də dünya səhiyyəsi üçün böyük əhəmiyyət daşıdığını qeyd edib. O, piylənmə ilə mübarizə istiqamətində elmi tədbirlərin və maarifləndirici təşəbbüslərin davam etdirilməsinin vacibliyini vurğulayıb. Qidalanma sahəsində yeni ixtisasların yaradılmasının nəzərdə tutulduğunu qeyd edən A.Ağayev bu sahədə tədris və elmi fəaliyyətin inkişafının əhəmiyyətinə toxunub. O, müxtəlif ali təhsil müəssisələrinin və digər qurumların nümayəndələrinin iştirakı ilə keçirilən elmi tədbirlərin təcrübə mübadiləsi, biliklərin paylaşılması və əməkdaşlığın genişləndirilməsi baxımından mühüm rol oynadığını bildirib.

Kafedranın dosenti Qəribə Hacıyeva "XXI əsrin qlobal qeyri-infeksion pandemiyası: piylənmənin etiologiyası, patogenezi və əsas risk faktorları" mövzusunda məruzə ilə çıxış edib.

Məruzəçi Dövlət Statistika Komitəsinin məlumatlarına istinad edərək bildirib ki, ölkədə 15 yaşdan yuxarı əhalinin yalnız 40,4 faizi normal bədən kütləsi indeksinə malikdir. Kişilərin 53,7 faizi, qadınların isə 43,2 faizi artıq çəki qrupuna daxildir. Yaş artdıqca problemin daha da dərinləşdiyini vurğulayan Q.Hacıyeva qeyd edib ki, 45–64 yaş qrupunda olan vətəndaşların 61,1 faizində artıq çəki müşahidə olunur. Azərbaycan əhalisində piylənmənin milli xüsusiyyətlərindən danışan Epidemiologiya və biostatistika kafedrasının müdiri, professor İbadulla Ağayev qidalanmanın insan həyatında mühüm yer tutduğunu, sağlamlığın qorunmasında düzgün qidalanma vərdişləri ilə yanaşı, yuxu və həyat tərzinin də əhəmiyyətli rol oynadığını deyib. O, bu məsələlərin yalnız tibbi baxımdan deyil, həm də mənəvi dəyərlər və insanın öz davranışlarına nəzarət etməsi kontekstində dəyərləndirilməsinin vacibliyinə toxunub.

Seminarda II Daxili xəstəliklər kafedrasının assistenti Səmayə Əliyevanın "Piylənmə: fərdi sağlamlıqdan ictimai problemə", Milli İdman Tibb və Reabilitasiya Elmi-Praktiki İnstitutunun əməkdaşı, diyetoloq Əfruz Namazovanın "Piylənmə müasir dövrün tibbi-sosial problemi kimi", Qidalanma və tibbi ekologiya kafedrasının assistenti Aytən Ağamaliyevanın isə "Piylənmənin profilaktikası və müalicəsində rasional qidalanmanın rolu" mövzusunda məruzələri dinlənilib.

Həmçinin diyetoloq Şəhriyyə Əhmədova "Piylənmə", Qidalanma və tibbi ekologiya kafedrasının baş müəllimi İlahə İslamzadə "Bədən kütləsinin azaldılmasında müasir qidalanma modelləri: elmi sübutlar və praktik yanaşmalar", Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının dosenti Zöhrə İsmayılova "Uşaq və yeniyetmələr arasında artıq bədən kütləsi və piylənmə probleminin müasir aspektləri və profilaktikası" mövzusunda təqdimatla çıxış ediblər. Qidalanma və tibbi ekologiya kafedrasının assistenti Türkan Sultanlı, kafedranın baş laborantı Sevinc Musayeva və magistrantı Nərmin Ağayeva, Tibbi mikrobiologiya və immunologiya kafedrasının assistenti Röya Abıyeva, Fizioterapiya və tibbi reabilitasiya kafedrasının assistenti Maral Dadaşovanın məruzələrində də mövzuya aid aktual məsələlər öz əksini tapıb. Natiqlər piylənmənin mikroorqanizmlərlə əlaqəsinə, risk amillərinə, qida davranışı və qidalanma mədəniyyətinə xüsusi diqqət çəkiblər.

Professor Kamil Balakişiyev - 120


Tanınmış alim, pedaqoq və ictimai xadim, professor Kamil Əbdülsalam oğlu Balakişiyev milli tibb elminin inkişafında və onun fundamental təməllərinin qoyulmasında müstəsna xidmətləri olan tarixi şəxsiyyətlərdəndir.



2026-cı ildə tanınmış alim, pedaqoq və ictimai xadim, professor K.Balakişiyevin anadan olmasının 120 illik yubileyi qeyd olunur və bu yubiley Azərbaycanda anatomiya elminin tarixi inkişaf yolunun qiymətləndirilməsi üçün mühüm elmi hadisə kimi dəyərləndirilir. 20 sentyabr 1906-cı ildə Bakının Novxanı kəndində anadan olan K.Balakişiyevin anatomiya elminə xüsusi meyli hələ ali təhsil illərində diqqəti cəlb etmiş, o, gənc yaşlarında fundamental biliklərə yiyələnərək 20 yaşında universiteti müvəffəqiyyətlə bitirmişdir. Sürətli elmi yaradıcılıq yolu keçən gənc mütəxəssis 1936-cı ildə, cəmi 30 yaşında tibb elmləri doktoru alimlik dərəcəsini, iki il sonra - 1938-ci ildə isə professor elmi adını almışdır. 1937-ci ildə Azərbaycanın tibb təhsili tarixində mühüm bir struktur dəyişikliyi baş vermiş və ilk dəfə olaraq Azərbaycan Dövlət Tibb İnstitutunun Normal anatomiya kafedrasına yerli, milli kadr olaraq professor Kamil Balakişiyev müdir təyin edilmişdir. Alim ömrünün sonunadək bu kafedraya böyük uğurla rəhbərlik etmiş, eyni zamanda uzun illər ərzində institutun elmi işlər üzrə prorektoru və Müalicə-profilaktika fakültəsinin dekanı vəzifələrini icra edərək respublikada bacarıqlı bir elm və təhsil təşkilatçısı olduğunu sübut etmişdir. Professor K.Balakişiyevin milli elm və maarifçilik qarşısında ən böyük xidmətlərindən biri Azərbaycan dilində ilk Anatomiya dərsliyinin yazılmasıdır. Alimin elmi-tədqiqat fəaliyyəti əsasən periferik sinir sisteminin morfo-funksional xüsusiyyətlərinin, daxili sekresiya vəzilərinin yaş morfologiyasının və ürək-damar sisteminin öyrənilməsinə yönəlmişdir. Ümumilikdə 100-ə yaxın elmi əsərin, monoqrafiya və metodik vəsaitin müəllifi olan professor, həmçinin onlarla elmlər namizədi və elmlər doktoru yetişdirmişdir. Alimin elmə, təhsilə və xalqına göstərdiyi bu çoxşaxəli xidmətlər dövlət tərəfindən yüksək qiymətləndirilmiş, o, "Azərbaycan SSR əməkdar elm xadimi" fəxri adına layiq görülmüş və bir çox orden və medallarla təltif olunmuşdur. Professor Kamil Balakişiyevin adı, onun fundamental irsi və formalaşdırdığı elmi məktəb Azərbaycan tibb tarixinin ən parlaq və silinməz səhifələrindən biri olaraq hər zaman yaşayacaqdır.

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları

Azərbaycan tibb elminin, xüsusilə biokimya elmi və tədrisinin inkişafında mühüm xidmətləri olmuş görkəmli alim, tanınmış pedaqoq və elm təşkilatçısı, Azərbaycan Tibb Universitetinin Bioloji kimya kafedrasının məsləhətçi-professoru, biologiya elmləri doktoru, professor, Əməkdar müəllim Arif Əfəndiyev vəfat edib.



Azərbaycan biokimya elminin inkişafında dərin iz qoymuş alim

1943-cü il yanvarın 1-də Şamaxı rayonunda ziyalı ailəsində doğulan Arif Mustafa oğlu Əfəndiyev 1959-cu ildə orta məktəbi əla qiymətlərlə bitirərək N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki ATU) Əczaçılıq fakültəsinə daxil olub, 1964-cü ildə ali təhsilini başa vurub. Həmin ildən etibarən Bioloji kimya kafedrasında baş laborant kimi əmək fəaliyyətinə başlayan A.Əfəndiyev sonrakı illərdə aspirant, assistent, dosent və professor vəzifələrində çalışıb. 1970-ci ildə namizədlik dissertasiyasını, 1986-cı ildə isə doktorluq dissertasiyasını uğurla müdafiə edib. 1989-cu ildə professor elmi adına layiq görülən, uzun illər Biokimya kafedrasına rəhbərlik edən A.Əfəndiyev 1988-1990-cı illərdə I Müalicə-profilaktika, 1992-1994-cü illərdə isə Əczaçılıq fakültəsinin dekanı vəzifələrində də işləyib.

Onun elmi əsərləri xarici ölkələrin nüfuzlu elmi jurnallarında çap olunub, özü isə müxtəlif beynəlxalq elmi qurultay və konfranslarda Azərbaycan biokimya elmini layiqincə təmsil edib.

Arif müəllimin rəhbərliyi altında 34 namizədlik (fəlsəfə doktorluğu) və 3 doktorluq dissertasiyası hazırlanaraq müdafiə edilib. Bu baxımdan A.Əfəndiyev Azərbaycan biokimya elmi məktəbinin formalaşmasına və yeni alim nəslinin yetişməsinə mühüm töhfə verib. 280-dən artıq elmi əsərin, dərslik və dərs vəsaitinin müəllifi və həmmüəllifi olub. Professorun çoxillik səmərəli fəaliyyəti dövlət tərəfindən də yüksək qiymətləndirilib. O, 1984-cü ildə "SSRİ Səhiyyə əlaçısı" döş nişanı ilə təltif edilib, 2010-cu ildə Əməkdar müəllim fəxri adına layiq görülüb.

Bütün ömrünü elmə, təhsilə və yüksəkixtisaslı kadrların hazırlanmasına həsr etmiş Arif Əfəndiyevin əziz xatirəsi universitetimizin kollektivinin, tələbələri və həmkarlarının qəlbində daim yaşayacaq.

Allah rəhmət eləsin!

Bioloji kimya kafedrasının kollektivi

Nadir rast gəlinən uroloji patologiyalar

Urologiya kafedrasının müdiri, Tədris Cərrahiyyə Klinikasının uroloq-cərrahı, professor Rauf Nağıyev sidik axarının xoşxassəli törəmələrinin aşkarlanması və əməliyyat zamanı gözlənilməz patologiyaların müəyyən edilməsi barədə məlumat verib.



Professorun sözlərinə görə, sidik axarının xoşxassəli törəmələri nadir rast gəlinən uroloji patologiyalardandır və uroloji törəmələrin 1 faizindən azını təşkil edir.

R.Nağıyev bildirib ki, 42 yaşlı xəstə sağ böyrək nahiyəsində davamlı küt ağrılarla klinikaya müraciət edib. Aparılan müayinələr nəticəsində sağ böyrəyin ləyənində 2 santimetr ölçüsündə daş aşkarlanıb. Əməliyyat zamanı aparılan ureteroskopiya nəticəsində isə sidik axarında üç törəmə müəyyən edilib. Törəmələrin vizual görünüşü onların xoşxassəli olması ehtimalını yaradıb. Buna görə də eyni əməliyyat çərçivəsində törəmələrin lazer ablaziyası və böyrək daşının lazerlə parçalanması həyata keçirilib. Əməliyyatdan bir ay sonra aparılan kontrol ureteroskopiya zamanı sidik axarında qalıq törəmələr aşkarlanmayıb. Professor qeyd edib ki, üçillik müşahidə müddətində xəstənin müntəzəm nəzarəti və maqnit-rezonans tomoqrafiyası müayinələri zamanı törəmələrin təkrar əmələ gəlməsi qeydə alınmayıb. Kafedra müdiri diqqətə çatdırıb ki, bu klinik halın əsas xüsusiyyəti əməliyyatdan əvvəl aparılan kontrastlı kompüter tomoqrafiyası, ultrasəs və digər müayinələrə baxmayaraq, sidik axarındakı törəmələrin aşkarlanmaması olub. Bu fakt endoskopik müayinənin diaqnostik əhəmiyyətini bir daha göstərir. Onun sözlərinə görə, bəzi hallarda MRT nadir patologiyaların aşkarlanmasında kompüter tomoqrafiyasından daha həssas ola bilər. Bununla yanaşı, endoskopik müdaxilə sidik yollarının birbaşa vizual qiymətləndirilməsinə və əvvəlcədən müəyyən edilməyən dəyişikliklərin aşkarlanmasına imkan verir. Professor gənc həkimlərə əməliyyat zamanı klinik vəziyyəti nəzərə alaraq həm aşağı, həm də yuxarı sidik yollarının vəziyyətinə diqqət yetirməyi tövsiyə edib. Professor vurğulayıb ki, törəmələrin vizual görünüşü bədxassəli şiş ehtimalı yaratsaydı, xəstəyə daha genişhəcmli cərrahi müdaxilə tələb oluna bilərdi. R.Nağıyev əməliyyat zamanı gözlənilməz anatomik xüsusiyyətlərin aşkarlanmasının da mümkün olduğunu qeyd edib. O, buna nümunə olaraq 57 yaşlı xəstənin klinik halını göstərib. Böyrəyin funksiyasını itirməsi və çoxsaylı daşların olması səbəbindən xəstəyə nefrektomiya əməliyyatı planlaşdırılıb. Əməliyyatdan əvvəl aparılan sintiqrafiya müayinəsi böyrəyin funksional fəaliyyətinin olmadığını təsdiqləyib. İlkin olaraq funksiyanın itirilməsinin uzunmüddətli daş xəstəliyi ilə əlaqəli olduğu düşünülsə də, əməliyyat zamanı böyrəkdə anadangəlmə anatomik qüsur və əlavə arteriyanın olması müəyyən edilib. Professorun sözlərinə görə, müasir diaqnostik üsulların inkişafına baxmayaraq, bütün patologiyaları əməliyyatdan əvvəl aşkarlamaq mümkün olmur. Buna görə də həkim klinik vəziyyəti hərtərəfli qiymətləndirməli, əməliyyat zamanı əldə edilən yeni məlumatları nəzərə almalı və xəstə üçün ən uyğun müalicə taktikasını seçməlidir.

Azərbaycan Tibb Universitetinin Fizioterapiya və tibbi reabilitasiya kafedrasının professoru, Azərbaycan Miqren Mütəxəssisləri İctimai Birliyinin həmtəsisçisi, professor Sədaqət Hüseynova səhiyyə menecmentində tibbi assosiasiyaların fəaliyyətinin əhəmiyyətindən danışıb.

Səhiyyə siyasətində tibbi assosiasiyaların rolu

Bildirib ki, tibbi assosiasiyalar müasir səhiyyə sisteminin mühüm institusional komponentlərindən biridir. Onların fəaliyyəti yalnız həkimlərin peşəkar maraqlarının müdafiəsi ilə məhdudlaşmır. Assosiasiyalar tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi, elmi biliklərin praktikaya tətbiqi, həkimlərin davamlı peşəkar inkişafı və səhiyyə siyasətinin təkmilləşdirilməsində mühüm rol oynayır. Səhiyyə menecmenti həm də insan resurslarının, maliyyə vəsaitlərinin, texnologiyaların və elmi potensialın səmərəli təşkilidir.

Onun sözlərinə görə, əsas istiqamətlərdən biri tibbi xidmətlərin elmi sübutlara əsaslanmasının təşviqidir. Klinik tövsiyələrin hazırlanması, müasir diaqnostika və müalicə üsullarının yayılması, elmi konfransların və təlimlərin təşkilində assosiasiyaların rolu böyükdür. "Bununla yanaşı, klinik protokolların tətbiqinin təşviqi, peşəkar müzakirələr və təcrübə mübadiləsi tibbi səhvlərin azaldılmasına, pasiyent təhlükəsizliyinin və xidmətlərin effektivliyinin artırılmasına kömək edə bilər. Lakin burada vacib məqam ondan ibarətdir ki, assosiasiyaların fəaliyyəti konkret nəticələrlə - tibbi xidmətlərin keyfiyyətində, pasiyent məmnunluğunda və müalicə nəticələrində müşahidə olunan yaxşılaşmalarla qiymətləndirilməlidir".

Həkimlərin davamlı tibbi təhsilində assosiasiyaların əhəmiyyətinə də toxunan professor müasir mütəxəssisin yeni elmi tədqiqatları izləməli, beynəlxalq klinik tövsiyələrə əməl etməli və biliklərini mütəmadi yeniləməli olduğunu vurğulayıb. Xüsusilə gənc həkimlərin elmi fəaliyyətə cəlb edilməsi, mentorluq proqramlarının yaradılması və klinik tədqiqat bacarıqlarının inkişaf etdirilməsi assosiasiyaların prioritet istiqamətlərindən olmalıdır.



Professor S.Hüseynova tibbi assosiasiyaları səhiyyə siyasətinin formalaşmasında mühüm fəaliyyət istiqamətlərindən biri kimi səciyyələndirərək, həkimlərin gündəlik klinik praktikada pasiyentlərin ehtiyaclarını, diaqnostika və müalicə prosesində qarşıya çıxan çətinlikləri birbaşa müşahidə etdiyini diqqətə çatdırıb. Qeyd edib ki, assosiasiyalar səhiyyə orqanlarına elmi əsaslandırılmış təkliflər təqdim edə, tibbi xidmətlərin təşkili, profilaktika, reabilitasiya, erkən diaqnostika və əhalinin sağlamlıq maarifləndirilməsi üzrə təşəbbüslərlə çıxış edə bilərlər.

Tibbi assosiasiyaların pasiyentlərin hüquqlarının qorunmasındakı rolunu və innovasiyaların tətbiqinə köməyini vurğulayan müsahibimiz, beynəlxalq əməkdaşlığın da tibbi assosiasiyalar üçün geniş imkanlar yaratdığını deyib.

Həmsöhbətimiz "Azərbaycanda tibbi assosiasiyaların fəaliyyətinin daha da inkişaf etdirilməsi üçün hansı addımlar vacibdir" – sualına da aydınlıq gətirib. O vurğulayıb ki, assosiasiyaların elmi və təşkilati potensialının gücləndirilməsi, həkimlərin davamlı peşəkar inkişafı üçün sistemli təlim proqramlarının yaradılması, yerli və beynəlxalq elmi tədqiqatların təşviqi, pasiyentlərin maarifləndirilməsi və xəstəliklərin profilaktikasına dair layihələrin genişləndirilməsi, səhiyyə orqanları, universitetlər, klinikalar və elmi təşkilatlarla əməkdaşlığın gücləndirilməsi və fəaliyyətin nəticələrinin ölçülməsi, şəffaflıq və maraqlar toqquşmasının idarə olunması xüsusi diqqət yetirilməli istiqamətlərdir.

Ən vacib məsələlərdən biri isə assosiasiyaların fəaliyyətini yalnız tədbirlərin sayı və iştirakçıların çoxluğu ilə deyil, onların səhiyyəyə real töhfəsi ilə qiymətləndirməkdir.

ATU-dan elmi dəstək, məktəblilərdən innovativ layihə



Travmatologiya kafedrasının əməkdaşı, tibb üzrə fəlsəfə doktoru, travmatoloq-ortoped Ayaz Hümbətovun elmi rəhbərliyi ilə Bakı məktəblilərindən ibarət komanda uşaqlarda ayaq formasının və yük paylanmasının erkən skrininqinə imkan verən "SoleShift Kids" layihəsini hazırlayıb.

Layihə uşaqlarda ayaq problemlərinin ilkin mərhələdə aşkarlanmasına dəstək olmaq, valideynləri məlumatlandırmaq və zərurət yarandıqda onları müvafiq mütəxəssisə yönləndirmək məqsədi daşıyır. Amerika Ortopedik Cərrahlar Akademiyasının (AAOS) üzvü olan A.Hümbətov layihənin tibbi istiqamətinə rəhbərlik edir. Jeyla Əhmədzadə, İlyas Tağıyev, Youssef El Haroun, Vahid Musayev və Mikayıl Əhmədbəylidən ibarət komandanın hazırladığı prototip səkkiz təzyiq sensoru və ESP32 mikrokontrolleri əsasında işləyir. Cihaz bir neçə saniyə ərzində ayağın müxtəlif nahiyələrinə düşən yükü ölçür və əldə olunan nəticələr əsasında valideynlər üçün sadə, anlaşıqlı hesabat hazırlayır.

Layihə paytaxt məktəblərində şagirdlərə nümayiş etdirilib. Skrininq tədbirlərinin aparılması zamanı uşaqların hüquqlarının və məxfiliyinin qorunmasına diqqət yetirilir. Bu məqsədlə yoxlamalar yalnız valideynlərin yazılı razılığı əsasında həyata keçirilir.

Azərbaycan Tibb Universiteti gənclərin elmi və innovativ təşəbbüslərinin dəstəklənməsinə, onların tibbi biliklərə yiyələnməsinə və bu bilikləri praktik layihələrdə tətbiq etməsinə xüsusi önəm verir.

Əməkdaşlarımızın uğurları

Meksikada Beynəlxalq Plastik, Rekonstruktiv və Estetik Cərrahiyyə Cəmiyyətinin (ISAPS) növbəti konfransı keçirilib. ATU-nun professoru Vaqif Qələndərov Kankun şəhərində baş tutan konfransa ISAPS-in milli katibi və Qlobal Alyansın prezidenti statusunda qatılıb. Professor sahə üzrə yeni elmi yanaşmaların, müasir cərrahi protokolların müzakirəsində iştirak edib.



Bu nüfuzlu platformada yüksək səviyyədə təmsil olunmağımız plastik cərrahiyyə sahəsində beynəlxalq əməkdaşlığın genişlənməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

* * *

Nevrologiya və tibbi genetika kafedrasının əməkdaş və dissertantları Gürcüstanın paytaxtı Tbilisi şəhərində Avropa Uşaq Nevrologiyası Cəmiyyətinin dəstəyi ilə keçirilən VII Qafqaz Uşaq Nevrologiyası Tədris Kursunda iştirak ediblər.



Azərbaycan ənənəvi keçirilən bu nüfuzlu beynəlxalqtədbirinilkdəfəolaraqüçhəmtəşkilatçı ölkəsindən biri kimi təmsil olunub. Kafedranın müdiri, professor Aytən Məmmədbəylinin rəhbərlik etdiyi nümayəndə heyəti xarici mütəxəssislərlə eyni elmi platformada öz klinik məruzələrini təqdim edib.

* * *

Avropa Kardiologiya Cəmiyyətinin Kardioprofilaktika işçi qrupunun rəhbəri, Asiya Ürək Cəmiyyətinin Kardioprofilaktika Şurasının sədri, ATU-nun Ailə təbabəti kafedrasının dosenti Rəhimə Qabulova Çindən qayıdıb.

Əməkdaşımız Pekində keçirilən 37-ci "Böyük Çin Səddi" Beynəlxalq Kardiologiya və Asiya Kardiologiya konqreslərində (GW-ICC/AHS 2026) iştirak edib. 58 ölkənin iştirakı ilə "Klinik əsaslar, inteqrasiya olunmuş gələcək" devizi altında baş tutan tədbirdə Amerika Kardiologiya Kolleci, Amerika Ürək Assosiasiyası və Avropa Kardiologiya Cəmiyyətinin prezidentləri, Cənub-Şərqi Asiya, Yaxın Şərq, Latın Amerikası və bir



sıra Avrasiya ölkələrinin milli cəmiyyətlərinin rəhbərləri, eləcə də yeddi aparıcı beynəlxalq kardiologiya jurnalının baş redaktorları və ekspertləri yer alıblar. R.Qabulovaya konqresdə Asiya Ürək Cəmiyyətinin (AÜC) həqiqi üzvü statusu verilib. Eyni zamanda, o, "Ürək-damar xəstəliklərinin inteqrə olunmuş profilaktikası: qalıq riskin azaldılmasına multidissiplinar yanaşma" adlı elmi sessiyanın təşkilatçısı və moderatoru kimi çıxış edib. AÜC Baş Assambleyasında isə Profilaktik Kardiologiya Şurasının sədri kimi çıxış edən əməkdaşımız, Şuranın fəaliyyət istiqamətləri və qarşıdakı dövr üçün nəzərdə tutulan fəaliyyət planı barədə hesabat təqdim edib.

* * *



I Mamalıq və ginekologiya kafedrasının dosenti Sevinc İsmayılova Özbəkistanın Daşkənd şəhərində keçirilən Mamalıq və Ginekologiya, Genital Estetik Cərrahiyyə üzrə Avrasiya Konqresində iştirak edib. Onun təqdim etdiyi "Hamiləlik dövründə uşaqlıq boynunun anomal sitoloji dəyişiklikləri" adlı məruzədə bu cür dəyişikliklərin klinik əhəmiyyəti, onların vaxtında aşkarlanması və düzgün qiymətləndirilməsinin ana sağlamlığının qorunmasında rolu diqqətə çatdırılıb.

* * *

Oftalmologiya kafedrasının III kurs rezidenti Xumar İbrahimova Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən VIII Yaxın Şərq Oftalmologiya Konfransında iştirak edib.

Konfrans çərçivəsində "Gənc Oftalmoloqlar" sessiyasına məruzəçi qismində qatılan rezidentimiz "Bəbək genişlənmədikdə: kataraktа cərrahiyyəsində bimanual yanaşma – klinik hallar" mövzusunda elmi təqdimatla çıxış edib. Məruzədə kataraktа cərrahiyyəsi zamanı dar bəbəyin idarə olunması, bimanual genişləndirmə texnikasının tətbiqi, onun üstünlükləri və klinik təcrübədən seçilmiş cərrahi hallardan bəhs edilib. Fakoemulsifikasiya üzrə praktik təlimdə iştirak edən X.İbrahimova cərrahi bacarıqları təkmilləşdirmək və beynəlxalq mütəxəssislərlə təcrübə mübadiləsi aparmaq imkanı qazanıb.



* * *

Əczaçılıq toksikologiyası və kimya, Qidalanma və tibbi ekologiya kafedralarının və Bakı Dövlət Universitetinin Botanika və bitki fiziologiyası kafedrasının əməkdaşları tərəfindən birgə aparılmış elmi tədqiqatın nəticələri "Azərbaycan Tibb Jurnalı"nın 2026-cı il 3-cü nömrəsində dərc olunub. "Azərbaycanın işğaldan azad edilmiş bəzi bölgələrinin bitki örtüyünün və bulaq sularının ağır metallarla çirklənmə səviyyəsi" adlı məqalədə Qarabağın işğaldan azad edilmiş ərazilərində su ehtiyatlarının və dərman bitkilərinin potensial toksik elementlərlə çirklənmə səviyyəsi araşdırılıb. Tədqiqat Şuşanın Cıdır düzü ərazisindən, Xan qızı və İsa bulaqlarından götürülmüş su nümunələrində, eləcə də Şuşa, Xankəndi, Xocalı və Laçın ərazilərindən toplanmış dərman bitkilərində toksikoloji baxımdan təhlükəli elementlərin – ağır metalların miqdarını müəyyənləşdirmək, əldə olunan nəticələri müvafiq normativ göstəricilərlə müqayisə etmək və potensial ekoloji riskləri qiymətləndirmək məqsədilə həyata keçirilib. Araşdırma çərçivəsində su nümunələrində alüminium, kadmium, civə və qurğuşunun, dərman bitkilərində isə kadmium, arsen, qurğuşun və civənin miqdarı təyin edilib. Aparılmış analizlərin nəticələri tədqiq olunan nümunələrdə bu elementlərin miqdarının fərqli olduğunu və müəyyən göstəricilər üzrə statistik əhəmiyyətli fərqlərin mövcudluğunu ortaya qoyub. Tədqiqatın diqqətçəkən nəticələrindən biri Xan qızı və İsa bulaqlarından götürülmüş su nümunələrində alüminiumun miqdarının içməli su üçün müəyyən edilmiş normativ hədləri aşmasıdır. Bununla yanaşı, araşdırılan bulaq sularında pH, codluq, ümumi neft məhsulları və həll olmuş duzların miqdarı üzrə göstəricilərin normativ hədlər daxilində olduğu müəyyən edilib. Dərman bitkilərinin kimyəvi-toksikoloji analizləri zamanı isə bəzi nümunələrdə kadmiumun miqdarının beynəlxalq tövsiyələrdə göstərilən hədlərdən yüksək olduğu aşkarlanıb. Alınmış nəticələr dərman bitkilərinin xammal kimi istifadəsi zamanı onların keyfiyyətinə və toksikoloji təhlükəsizliyinə nəzarətin gücləndirilməsinin vacibliyini göstərir.

"İdman zədələnmələrinin qarşısının alınması və risklərin təhlili" mövzusunda seminar keçirilib. İctimai səhiyyə fakültəsinin Səhiyyə klubu və UMDC – Universal Tibb və İnkişaf Cəmiyyətinin əməkdaşlığı çərçivəsində baş tutan tədbirə Fatih Sultan Mehmet Vakıf Universitetinin müəllimi, fizioterapevt Mehmet Zahit Gül mentorluq edib.



İdman zədələnmələri mövzusunda seminar keçirilib

Seminar zamanı idman zədələnmələrinin qarşısının alınması, zədələnmə risklərinin təhlili və risk faktorları haqqında ətraflı məlumat verilib. İnteraktiv formatda keçirilən görüş müzakirələrlə davam edib. Tədbir BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərindən 4-cü Məqsəd – Keyfiyyətli Təhsil (SDG 4) istiqamətində qarşıya qoyulan məqsədlərə töhfə verir.

Ultrasəs diaqnostikasında süni intellektin rolu

Tədris Cərrahiyyə Klinikasında "Qalxanabənzər vəzi düyünlərinin ultrasəs müayinəsində süni intellekt: tədqiqat yanaşmaları və ilkin təcrübələrimiz" mövzusunda elmi seminar keçirilib.



Seminarda ADA Universitetinin Mühəndislik fakültəsinin Kompüter elmləri bölməsinin müəllimi Nurəddin Sədili məruzə ilə çıxış edib. Məruzədə tibbi görüntülərin süni intellekt alqoritmləri vasitəsilə təhlili, qalxanabənzər vəzi düyünlərinin xüsusiyyətlərinin avtomatlaşdırılmış qiymətləndirilməsi və bu texnologiyaların diaqnostik prosesə inteqrasiyası perspektivlərinə toxunulub. Seminar tibb və kompüter elmləri arasında multidissiplinar əməkdaşlığın əhəmiyyətini ön plana çıxarıb. Süni intellektin tibbi diaqnostikada istifadəsi, eləcə də bu sahədə gələcək birgə elmi-tədqiqatların aparılması imkanları tədbirin əsas müzakirə mövzularından olub.

Birincili hiperaldosteronizm müzakirə olunub

Tədris Terapevtik Klinikada II Daxili xəstəliklər kafedrasının Daxili xəstəliklər ixtisası üzrə II kurs rezidenti Mark Simanduyev tələbə və rezidentlər üçün "Birincili hiperaldosteronizm" mövzusunda mühazirə oxuyub.



Mühazirədə arterial hipertenziyanın mühüm, lakin çox zaman vaxtında aşkarlanmayan səbəblərindən biri olan birincili hiperaldosteronizmə diqqət çəkilib. Çıxış zamanı aldosteron hormonunun həddindən artıq sintezinin ürək-damar sisteminə və böyrəklərə mənfi təsirləri, xəstəliyin əsas alt tipləri və genetik mexanizmləri ətraflı izah edilib. Eyni zamanda, diaqnostik yanaşmalar Endokrin Cəmiyyətinin 2025-ci il tövsiyələri əsasında təqdim olunub. Bildirilib ki, vaxtında və dəqiq diaqnostika xəstəliyin effektiv müalicəsinə, ağırlaşma riskinin azaldılmasına və pasiyentlərin həyat keyfiyyətinin yaxşılaşdırılmasına imkan yaradır.

“Dəmir Yumruq”: Zəfərin anatomiyası

Ötən il 8 Noyabr – Zəfər Günü münasibətilə universitetimizdə yaradıcılıq müsabiqəsi keçirilirdi. Bu müsabiqə çərçivəsində hər detala sevgisini qatan əzmkar komandamızla - tələbələrimiz Həmid Səfərli, Aydan Paşayeva, Röyal Kazımov, Şayan Haşempour, Mehriban Vəliyeva, Reyhan Nəsibli, Leyla Səfərli, Mədinə Qaziyeva, Torkan Haşempour və Sərxan Əhmədovla birlikdə anatomiya elmini milli ruh və Zəfərimizin simvolik mənası ilə birləşdirən xüsusi bir maket hazırlamağa başladıq.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli liderliyi ilə “Dəmir Yumruq” xalqımızın sarsılmaz birliyinin, gücünün və iradəsinin rəmzinə çevrilib. Əzələ, damar



və sinirlərin ahəngini özündə əks etdirən maketimiz bu rəmzin anatomik təcəssümü idi: “Yumruğun iki dayağı olan – biləyi bükən mil əzələsi (M. flexor carpi radialis) irəliyə yönələn cəsarəti, biləyi bükən dirsək əzələsi (M.flexor carpi ulnaris) möhkəmliyi və sədaqəti simvolizə edir. Bazu-mil əzələsi (M.brachioradialis) Vətənin sabitliyini qoruyan sakit və müdrik insanlar təki onların yaratdığı gücü nizamlayır, Barmaqları bükən səthi (M.flexor digitorum superficialis) və dərin (M.flexor digitorum profundus) əzələlər isə bu gücün son ifadələridir. Səthi əzələ barmaqların orta hissəsini bükərək hərəkəti başladır, dərin əzələ isə tam bağlayaraq yumruğu yaradır. Baş barmağı bükən uzun əzələ (M. flexor pollicis longus) isə baş barmaq vasitəsilə yumruğu möhkəm kilidləyir. Bu əzələlərin arasından keçən şırımlar sanki həyat axınının yollarıdır. İlk şırımda uzanan və baş barmağın arxasına doğru istiqamətlənən mil arteriyası (A. radialis) maketimizdə işğaldan azad olunmuş torpaqlara doğru yönələn azadlığın yolunu xatırladır. Xalqın bilik və düşüncə gücünü təmsil edən orta sinir (N. medianus) hərəkəti və duyğunu birləşdirən ağıl xəttidir sanki. Və nəhayət, sonuncu dirsək arteriyası (A. ulnaris) və dirsək siniri (N. ulnaris) öz canı ilə Vətəni qoruyan əsgərlər kimi daxili cəbhədə birlikdə dayanan səssiz müdafiəçilərdir. Arteriyaları müşayiət edən və qanı ürəyə qaytaran venalar isə şəhidləri xatırladır. Can torpağa gedərkən ruh Vətənin qəlbinə qayıdır və onu əbədi yaşadır”.

Təqdimat günü gəlib çatdı. Zəhmətin çəkisi tərəzidə ağır gəldi: əl işimiz müsabiqədə birinci yerə layiq görüldü. Bu, elmin işığı, birlik, əzm və “Dəmir Yumruq” ruhunun qələbəsi idi. Hazırda maketimiz İnsan anatomiyası və tibbi terminologiya kafedrasının muzeyində saxlanılır və yeni tələbələrə anatomiyanı Vətən sevgisi ilə birlikdə öyrədir.

“Dəmir Yumruq” torpağımızı azad edən hər bir əsgərin, hər bir igidin qəlbində döyünür. Şəhidlərimizin ruhu qarşısında baş əyir, qazilərimizə dərin ehtiramımı bildirirəm.

Sonda isə gələcəyin hərbi feldşer və həkimlərini – sabah həm ağ xalatı, həm də hərbi geyimi şərəflə daşıyacaq, əlində həm şəfa, həm də qüdrət olacaq tələbələrimizi xüsusi olaraq alqışlamaq istəyirəm. Şanlı Zəfərimiz əbədi olsun!

Vüsalə DADAŞOVA,
İnsan anatomiyası və tibbi terminologiya kafedrasının assistenti, t.ü.f.d

Bayram münasibətilə idman yarışları təşkil olunub

8 Noyabr – Zəfər Günü və 9 Noyabr – Dövlət Bayrağı Günü münasibətilə Azərbaycan Tibb Universitetinin İdman Kompleksində tələbələr arasında badminton, stolüstü tennis və kamandan oxatma üzrə idman yarışları keçirilib.



ATU-nun “Təbib” Tədris İdman Mərkəzi (TTİM) və Bakı Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı, “Vector” Oxatma Klubunun dəstəyi ilə reallaşdırılan tədbirlər tələbələr arasında idmana marağı artırmaq, fiziki hazırlığı və sağlam həyat tərzini təşviq etmək, milli bayramlarımızı gənclər arasında yüksək vətənpərvərlik ruhunda qeyd etmək məqsədi daşıyıb.

Stolüstü tennis üzrə yarışlar TTİM-in məşqçi-müəllimi Yaroslava Ağaməliyevanın rəhbərliyi ilə keçirilib. Ümumilikdə 26 tələbənin (16 oğlan və 10 qız) iştirak etdiyi yarışlarda qızlar arasında Demirtaş Tuğce I, Alena Abraham II, Rəna Mahmudova III yeri tutub. Oğlanların mübarizəsində Barış Kaplan qızıl medal qazanıb. Seyedali Mirhaşemi II, Eren Şahin isə III olub.


Badminton yarışları TTİM-in məşqçi-müəllimi Nərgiz Mehdiyevanın nəzarəti və baş hakimliyi ilə Olimpiya sistemi üzrə təşkil olunub. 32 tələbənin (16 oğlan və 16 qız) qatıldığı yarışda qızlar arasında Ülkər Məmmədova I, Söhmer Bərivan II, Alena Abraham III yeri tutub. Oğlanların yarışında Riçard Marven qalib olub. Vəfa Emin II, Mövlam Baxışlı isə III yeri qazanıb. Stolüstü tennis və badminton yarışlarının ardından İdman Kompleksinin atletika manejində kamandan oxatma üzrə mübarizəyə start verilib. Hərbi tibb fakültəsinin I kurs feldşer kursantları arasında keçirilən yarışda 88 kursant (70 oğlan və 18 qız) iştirak edib. Qızlar arasında Milana Həbibullayeva I, Firəngiz Əsədova II, Ayşən Abışova III yeri tutub. Oğlanların mübarizəsində Nihad Abbaszadə I, Səid Bayramlı II, Vaqif Abbasov isə III olub.

Yarışların tibbi təminatı da diqqətdə saxlanılıb. Tələbələr könüllü həkim qismində iştirak edərək, yarışlar zamanı ilkin tibbi yardımın göstərilməsini təmin ediblər. Yarışların başa çatmasından sonra qaliblərin mükafatlandırılması mərasimi keçirilib. Mərasimi giriş sözü ilə “Təbib” TİM müdiri, dosent Qələndər Aslanov açaraq iştirakçıları Zəfər Günü və Dövlət Bayrağı Günü münasibətilə təbrik edib. Daha sonra tədbir iştirakçıları Azərbaycan Respublikasının Dövlət Himnini birlikdə oxuyublar.

Rəsmi hissədə Bakı Şəhər Gənclər və İdman İdarəsinin rəis müavini Rəhimə İsmayılova, ATU-nun Hərbi tibb fakültəsinin rəisi, polkovnik Məharət Rzayev, İctimai səhiyyə fakültəsinin həmkarlar təşkilatının sədri Səidə Hacıyeva və “Vector” klubunun baş məşqçisi Vüsal Kazımov çıxış ediblər.

Daha sonra qaliblərə mükafatlar təqdim olunub. Yarışların tibbi təminatında könüllü həkim kimi iştirak edən İlhamə Namazova, Səfiyyə Qazilova və Aysel Məmmədovaya isə təşəkkürnamələr verilib.

Tələbələrimiz “Qələbə qaçışı”nda medallar qazanıb



Universitetimiz Zəfər Gününə həsr olunmuş ənənəvi VI “Qələbə qaçışı”nda təmsil olunub.

Gənclər və İdman Nazirliyi, Bakı Şəhər Halqası Əməliyyat Şirkəti və Azərbaycan Atletika Federasiyasının birgə təşkilatçılığı ilə “Qürurla irəli” şüarı altında baş tutan xeyriyyə tədbirində ATU-nun müxtəlif fakültələrində təhsil alan 10 tələbə iştirak edib. Tələbələrin yarışa hazırlığı və iştirakı “Təbib” Tədris İdman Mərkəzinin atletika üzrə məşqçi-müəllimi Xatirə Şıxlının rəhbərliyi və məşqçi dəstəyi ilə həyata keçirilib.

Dənizkənarı Milli Parkda, “Yeddi gözəl” fəvvarəsinin yaxınlığından start götürən qaçış iştirakçıları 10 kilometrlik məsafəni qət edərək finiş xəttinə çatıblar. Yarışda 2000-dən çox iştirakçı mübarizə aparıb, onlardan 1494 nəfər finişə çatıb. ATU-nu təmsil edən Mahsa Palar, Paria Bagherian, Alena Abraham, Saifudeen Sabu, Zoobin Partoo, Əli Süleymanov, Smrati Yadav, Vijendra Yadav, Aga Ragimov və Yasmin Akdağ 10 kilometrlik məsafəni uğurla başa vuraraq medallarla təltif olunublar. Qeyd edək ki, xeyriyyə məqsədilə keçirilən “Qələbə qaçışı”ndan əldə olunan vəsait “YAŞAT” Fonduna ianə edilib.

“Təbib” Tədris İdman Mərkəzi və II Müalicə-profilaktika fakültəsinin dekanlığının birgə təşkilatçılığı ilə tələbələr arasında 8 Noyabr - Zəfər Gününə həsr olunmuş şahmat turniri keçirilib.

Zəfər Gününə həsr olunmuş şahmat turniri keçirilib

Turnirin açılış mərasimində çıxış edən İdman Mərkəzinin müdiri, dosent Qələndər Aslanov Zəfər Gününün xalqımızın tarixi Qələbəsinin və milli birliyinin rəmzi olduğunu vurğulayıb. O bu əlamətdar günə həsr olunan idman yarışlarının tələbələrin vətənpərvərlik ruhunda yetişməsinə və milli dəyərlərə bağlılığının möhkəmlənməsinə töhfə verdiyini bildirib.

II Müalicə-profilaktika fakültəsinin akademik məsləhətçisi, assistent Namiq Xəlilov da çıxışında Zəfər Gününün gənc nəsil üçün böyük qürur və örnək mənbəyi olduğunu qeyd edərək, qazanılmış tarixi Qələbənin gələcək nəsillərə ötürülməsinin vacibliyini vurğulayıb.

Şahmat bölməsinin məşqçi-müəllimi, dosent Kübra Bacarani-Qasımova isə 14 oğlan, 8 qız olmaqla 22 tələbənin iştirak etdiyi yarışın qaydaları və müvafiq təlimatlar barədə iştirakçılara ətraflı məlumat verib.

7 turdan ibarət yarışın sonunda qızlar və oğlanlar arasında qaliblər müəyyənləşib. Qızlar arasında Nüşabə Novruzlu I, Fidan Əsədzadə II, Mehriban Vəliyeva isə III yerin qalibi olub. Oğlanlar arasında Murad Fətəlizadə I, Ziya Qəfərli II, Mirkamran Həşimli isə III yerdə qərarlaşıb. Yarışın sonunda qaliblər “Təbib” Tədris İdman Mərkəzinin təsis etdiyi diplom və medallarla təltif olunublar.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

Kafedranın professoru:
- Qulaq, burun, boğaz xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)

Kafedranın dosentləri:
- Psixiatriya kafedrası - 1 yer
- Normal fiziologiya kafedrası - 1 yer (0,25 vahid)
- Anesteziologiya, reanimatologiya, intensiv terapiya kafedrası - 1 yer
- Normal fiziologiya kafedrası - 1 yer (0,5 vahid)
- Normal fiziologiya kafedrası - 2 yer

Kafedraların assistentləri:
- Tibb və sağlamlıq elmləri təhsili kafedrası - 1 yer
- Tibbi mikrobiologiya və immunologiya kafedrası - 1 yer
- Onkologiya kafedrası - 1 yer (0,5 vahid)
- Bioloji kimya kafedrası - 1 yer
- II Uşaq xəstəlikləri kafedrası - 2 yer (0,5 vahid)
- Yoluxucu xəstəlikləri kafedrası - 1 yer
- Qidalanma və tibbi ekologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ümumi cərrahlıq kafedrası - 1 yer
- I Cərrahi xəstəliklər kafedrası - 2 yer (0,5 vahid)
- III Daxili xəstəliklər kafedrası - 1 yer
- I Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,25 vahid)
- II Daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Psixiatriya kafedrası - 1 yer
- I Daxili xəstəliklər kafedrası - 1 yer
- Uşaq stomatologiyası kafedrası - 1 yer (0,5 vahid)

Kafedranın baş müəllimi:
- Xarici dillər kafedrası - 1 yer

Kafedranın müəllimi:
- Azərbaycan dili kafedrası - 1 yer (0,5 vahid)

Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədək-dir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:

AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14
Telefon: 597-10-08

Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Rektorun adına ərizə.
2. İddiaçının şəxsi məlumat vərəqi.
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır.
4. Tərcümeyi-hal. Burada ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər və kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, iştirak etdiyi ixtisasartırma kursları, ailə üzvləri barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefon nömrəsi göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş il üzrə həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski (əgər bal-reytinq cədvəli üzrə qiymətləndirilmə zamanı təqdim edilməyibsə).
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomları və elmi ad attestatlarının surəti.
10. “Pedaqoji peşəkarlığın inkişafı” mövzusunda təlimlərdə iştirakı barədə sertifikatın surəti.

Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.

Allah rəhmət eləsin!

İctimai səhiyyə fakültəsinin həmkarlar təşkilatı, Tibbi mikrobiologiya və immunologiya, İnsan anatomiyası və tibbi terminologiya kafedralarının əməkdaşları Bioloji kimya kafedrasının məsləhətçi professoru

Arif Əfəndiyevin

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

I Uşaq xəstəlikləri kafedrasının kollektivi kafedranın assistenti Nuranə Hüseynovaya qayınatası

Canqəli Hüseynovun

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Farmakologiya kafedrasının əməkdaşları I MPF-nin dekan müavini Nigar xanıma

atasının

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

“Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun “Təbib” nəşriyyatında çap olunur və universitet daxilində yayılır

Ü N V A N I M I Z:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0019
Sayı 800